**«AZSIĞORTA» ASC**

# AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİSİNDƏN KEÇƏN TRANZİT MALLARIN GÖMRÜK RÜSUMUNUN ÖDƏNİLMƏSİ MƏSULİYYƏTİNİN SIĞORTASI QAYDALARI

**12 may 2009-cu il tarixində**
**Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə razılaşdırılıb**

©
«AZSIĞORTA» ASC - 2009

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| ANLAYIŞLAR | | 4 |
| **BÖLMƏ I.** | **SIĞORTA MÜQAVİLƏSİNİN TƏRƏFLƏRİ** | 5 |
| Maddə 1. | Sığortaçı | 5 |
| Maddə 2. | Sığortalı | 5 |
| Maddə 3. | Faydalanan şəxs | 5 |
| **BÖLMƏ II.** | **SIĞORTANIN OBYEKTİ** | 5 |
| Maddə 4. | Sığorta obyekti və sığorta sinfi | 5 |
| **BÖLMƏ III.** | **SIĞORTA TƏMİNATI** | 5 |
| Maddə 5. | Sığorta riskləri. Sığorta hadisələri | 5 |
| Maddə 6. | Sığorta təminatına daxil olmayan hallar (istisnalar) | 5 |
| Maddə 7. | Sığortanın ərazisi | 6 |
| **BÖLMƏ IV.** | **SIĞORTA MƏBLƏĞİ VƏ SIĞORTA HAQQI** | 6 |
| Maddə 8. | Sığorta məbləği | 6 |
| Maddə 9. | Sığorta haqqı | 6 |
| Maddə 10. | Sığorta haqqının ödənilməsi | 6 |
| **BÖLMƏ V.** | **SIĞORTA MÜQAVİLƏSİ** | 6 |
| Maddə 11. | Sığorta müqaviləsinin bağlanması | 6 |
| Maddə 12. | Sığorta müqaviləsi bağlanan zaman sığortalı tərəfindən bildirilməli olan faktlar | 7 |
| Maddə 13. | Sığorta müddəti | 8 |
| Maddə 14. | Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi | 8 |
| Maddə 15. | Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə | 8 |
| Maddə 16. | Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri | 8 |
| **BÖLMƏ VI.** | **TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ** | 9 |
| Maddə 17. | Sığortaçının hüquqları və vəzifələri | 9 |
| Maddə 18. | Sığortalının hüquqları və vəzifələri | 9 |
| **BÖLMƏ VII.** | **ÖDƏNİLƏN ZƏRƏRLƏR** | 10 |
| Maddə 19. | Ödənilən zərərlər | 10 |
| **BÖLMƏ VIII.** | **SIĞORTA ÖDƏNİŞİ** | 11 |
| Maddə 20. | Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər | 11 |
| Maddə 21. | Sığorta ödənişinin verilməsi qaydası | 11 |
| Maddə 22. | Sığorta ödənişinin verilməsindən imtina | 12 |
| **BÖLMƏ IX.** | **DİGƏR MÜDDƏALAR** | 12 |
| Maddə 23. | Subroqasiya hüququ | 12 |
| Maddə 24. | Valyuta haqqında qeyd-şərt | 12 |
| Maddə 25. | İş sirlərinin gizli saxlanılması | 12 |
| Maddə 26. | Mübahisələrin həlli qaydası | 12 |
| Maddə 27. | İddia müddəti | 12 |

## ANLAYIŞLAR

Əgər qaydaların məzmununda başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

**Sığortaçı -** «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu əsasında sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs.

**Sığortalı -** sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi.

**Sığorta olunan -** sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan şəxs.

**Faydalanan şəxs -** sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs.

**Sığorta müqaviləsi -** sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma.

**Sığorta şəhadətnaməsi -** sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd.

**Sığorta obyekti -** sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi.

**Sığorta haqqı -** risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği.

**Sığorta məbləği -** sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi.

**Sığorta riski və ya risk -** sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik.

**Sığorta hadisəsi -** qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal.

**Sığorta tələbi -** sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti.

**Sığorta ödənişi -** sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası.

**Sığorta tarifi -** sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi.

**Sığortanın müddəti -** sığorta risklərinin sığortalanmış hesab olunduğu müddət.

**Azadolma məbləği -** sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir.

**Əhəmiyyətli hallar -** müqavilə bağlanarkən bildirilməli olan, sığortaçının müqavilədən imtina etmək və ya onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən və/və ya sığortalıya yazılı şəkildə aydın və birmənalı sorğu verilmiş bütün hallar (faktlar) əhəmiyyətli sayılır.

**Sığortanın ərazisi -** sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən coğrafi ərazi hüdudları.

## BÖLMƏ I. SIĞORTA MÜQAVİLƏSİNİN TƏRƏFLƏRİ

Maddə 1. **Sığortaçı**
Bu Qaydalara əsasən sığortaçı dedikdə «AZSIĞORTA» ASC başa düşülür.

Maddə 2. **Sığortalı**
2.1. Bu Qaydalara əsasən sığortalı dedikdə sığorta obyektinə münasibətdə əmlak mənafeləri olan və sığorta şəhadətnaməsində adı göstərilən hər hansı bir fiziki və ya hüquqi şəxs başa düşülür.
2.2. Bu Qaydalar daxilində sığortalının hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, «Sığorta fəaliyyəti haqqında» qanuna, sığorta müqaviləsinə, vəkalətnaməyə (etibarnaməyə) və ya vəzifə öhdəliklərinə əsasən sığortalı adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid edilir.

Maddə 3. **Faydalanan şəxs**
Bu Qaydalara əsasən faydalanan şəxs Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsidir.

## BÖLMƏ II. SIĞORTANIN OBYEKTİ

Maddə 4. **Sığorta obyekti və sığorta sinfi**
4.1. Sığortalı tərəfindən respublikanın ərazisindən tranzit mallarının daşınması qaydalarının tələblərinin pozulması nəticəsində gömrük orqanlarına vurulmuş zərərlərin əvəzinin ödənilməsi ilə bağlı Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə zidd olmayan əmlak mənafeləri bu Qaydalar daxilində sığorta obyekti hesab olunur.
4.2. Bu Qaydalar «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununun 14.3.3.9-cu maddəsində qeyd olunan sığorta obyektinə görə əmlak sığortasına aid olan ümumi mülki məsuliyyətin sığortası sinfinə aiddir.

## BÖLMƏ III. SIĞORTA TƏMİNATI

Maddə 5. **Sığorta riskləri. Sığorta hadisələri**
Yükdaşıyıcının Azərbaycan Respublikası ərazisindən tranzit yüklərinin daşınması zamanı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Tranzit gömrük rejimi haqqında" Qaydalarına əsasən malların tranziti gömrük rejiminin pozulması hallarında şərti hesablanmış gömrük ödənişlərinin ödənilməsi məsuliyyətinin yaranması sığorta hadisəsi hesab olunur.

Maddə 6. **Sığorta təminatına daxil olmayan hallar (istisnalar)**
6.1. Aşağıdakı halların nəticəsində baş verən sığorta hadisələri sığorta təminatına daxil deyildir:
6.1.1. hər hansı nüvə partlayışı, radiasiya və ya radioaktiv çirklənmələr və bunlara qarşı görülən hərbi və inzibati tədbirlər nəticəsində yaranan itkilər və zərərlər;
6.1.2. müharibə, təcavüz, hər cür hərbi hərəkətlər, xarici dövlətlərin düşmənçilik hərəkətləri, elan edilib edilməməsindən asılı olmayaraq təcavüzkar hərbi əməliyyatlar, vətəndaş müharibəsi, tədricən xalq üsyanlarına və ya hərbi qiyamlara çevrilən xalq iğtişaşları, hərbi qiyam, inqilab, hərbi və qəsbkar hərəkətlər, istila, vuruşma (müharibə elan edilib edilməməsindən asılı olmayaraq) və bunlara qarşı görülən inzibati və hərbi tədbirlər nəticəsində yaranan itkilər və zərərlər;
6.1.3. hökumət, dövlət və ya yerli hakimiyyət orqanlarının tapşırığı ilə yükün müsadirə olunması, milliləşdirilməsi, həbs olunması, rekvizisiyası, məhv edilməsi və ya korlanması;
6.1.4. hər hansı terror hərəkətləri və bunlara qarşı görülən inzibati və hərbi tədbirlər nəticəsində baş verən bütün növ itkilər və zərərlər;
6.2. Aşağıda göstərilən hallar nəticəsində sığortalının yaranan məsuliyyəti sığorta təminatına daxil deyildir:
6.2.1. yol-nəqliyyat hadisəsi nəticəsində yükün tam və ya qismən itirilməsinə görə;
6.2.2. qarşısıalınmaz qüvvələr nəticəsində yükün tam və ya qismən itirilməsinə görə;
6.2.3. yükün təbii xüsusiyyətlərindən asılı olaraq kəmliyi;
6.2.4. yükün hər-hansı bir səbəbdən xarab olması ilə bağlı.

Maddə 7. **Sığortanın ərazisi**
Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, bu sığorta Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

## BÖLMƏ IV. SIĞORTA MƏBLƏĞİ VƏ SIĞORTA HAQQI

Maddə 8. **Sığorta məbləği**
8.1. Sığorta məbləği sığortalının istəyi ilə Azərbaycan Respublikası ərazisindən hər bir tranzit yük üzrə ayrı-ayrılıqda və ya bir il ərzində daşınan yüklərin cəmi üzrə sığortaçı tərəfindən müəyyənləşdirilə bilər.
8.2. Sığorta müqaviləsinin tərəfləri sığorta məbləğini (məsuliyyət həddini) müəyyən edərkən beynəlxalq sazişlərin müddəalarını rəhbər tuta bilərlər.
8.3. Sığortaçı həm ümumi sığorta müqaviləsi üzrə, həm də hər bir sığorta hadisəsi ilə əlaqədar olaraq məsuliyyət həddini müəyyən edə bilər.

Maddə 9. **Sığorta haqqı**
9.1. Sığorta haqqı sığorta şəhadətnaməsində göstərilən müddətdə və qaydada sığortalı tərəfindən sığorta üçün ödənilən haqdır.
9.2. Sığorta haqqı hər bir daşıma üzrə dəqiq məbləğdə müəyyən olunur.
9.3. Sığorta müqaviləsi il ərzində nəzərdə tutulan daşımalar üzrə bağlandığı halda sığorta haqqı təxmin edilən tranzit daşınan yüklərin dəyərinə əsasən birdəfəlik hesablanır. Bu halda sığorta haqqından onun 80 %-dən az olmayaraq minimal depozit (qaytarılmayan) sığorta haqqı hesablana bilər.
9.4. Sığorta haqqının miqdarının müəyyən edilməsi sığortalının ərizəsində göstərilən məlumatlar əsasında hər bir sığortalı üçün fərdi qaydada həyata keçirilir.

Maddə 10. **Sığorta haqqının ödənilməsi**
10.1. Sığorta müqaviləsinə əsasən sığorta haqqı sığortalı tərəfindən nağd və ya köçürmə yolu ilə birdəfəyə və ya hissə-hissə ödənilə bilər. Sığorta haqqının ödənildiyi gün onun sığortaçının bank hesabına və ya nağd ödəmə zamanı sığortaçının kassasına daxil olduğu gün hesab olunur.
10.2. Əgər sığorta haqqı müəyyən olunmuş müddət(lər)də sığortaçıya ödənilməzsə, sığorta şəhadətnaməsi öz qüvvəsini itirir və sığortaçı həmin müqavilə üzrə heç bir məsuliyyət daşımır.
10.3. Bu Qaydaların 9.3 bəndində göstərilən minimal depozit sığorta haqqı hesablandığı halda sığorta müqaviləsi başa çatdıqda sığorta haqqı bir daha dəqiqləşdirilir və qalıq hissəsi sığortalı tərəfindən sığortaçıya ödənilir. Sığorta müqaviləsinin müddəti başa çatdıqda sığorta haqqı sığortalı tərəfindən ödənilmiş minimal depozit sığorta haqqının məbləğindən az olarsa sığortaçı fərqi geri qaytarmır.

## BÖLMƏ V. SIĞORTA MÜQAVİLƏSİ

Maddə 11. **Sığorta müqaviləsinin bağlanması**
11.1. Sığorta müqaviləsinin bağlanması üçün sığortalı müqavilə bağlamaq niyyəti barəsində sığortaçıya yazılı və ya şifahi müraciət edir. Müraciətdə aşağıdakı məlumatlar göstərilməlidir:
11.1.1. sığortalının tam adı, hüquqi ünvanı, bank rekvizitləri, telefon və faks nömrələri;
11.1.2. sığortaya cəlb edilən tranzit yük haqqında məlumat (həqiqi dəyəri, qablaşdırılması, yerlərin sayı, çəkisi və sair);
11.1.3. yük daşıyıcı haqqında məlumat (daşıyıcının tam adı, telefon və faks nömrələri, hüquqi və faktiki ünvanı və sair);
11.1.4. yükü daşıyan nəqliyyat vasitəsinin, qoşqunun və ya yarımqoşqunun dövlət qeydiyyat nömrələri, növü, markası və sürücüləri haqqında məlumat.

11.2. Sığortalı sığortaçının tələbi ilə sığortaya təqdim edilən tranzit daşımayla bağlı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

11.2.1. sürücünün şəxsiyyətini təsdiq edən sənədi (xarici pasportu) və sürücülük vəsiqəsini;

11.2.2. tranzit daşınan yükün yol-nəqliyyat sənədlərini;

11.2.3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tranzitə icazəsini təsdiq edən sənədləri.

11.3. Sığorta müqaviləsi yazılı formada rəsmiləşdirilir və sığortalının ərizəsi əsasında bağlanılır.

11.4. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta şəhadətnaməsi sığorta haqqının birdəfəlik və ya mərhələli ödənişin birinci hissəsi sığortalı tərəfindən ödənildiyi gündən etibarən 5 bank günü ərzində sığortaçı tərəfindən sığortalıya təqdim edilir.

11.5. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta şəhadətnaməsi itirilərsə, sığortalının yazılı ərizəsi əsasında ona həmin şəhadətnamənin dublikatı verilir. Dublikat sığortalıya təqdim edildiyi andan itirilmiş sığorta şəhadətnaməsi qüvvədən düşmüş hesab olunur və onun əsasında sığortaçı heç bir sığorta ödənişi həyata keçirmir.

11.6. Sığorta şəhadətnaməsinin dublikatı sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində təkrar olaraq itirilərsə, ikinci dublikatı almaq üçün sığortalı sığortaçıya 20 ABŞ dolları həcmində sığorta şəhadətnaməsinin dublikatının hazırlanması və rəsmiləşdirilməsi xərcini ödəyir.

11.7. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığortalı tərəfindən sığorta haqqı ödənildiyi andan qüvvəyə minir. Sığorta müqaviləsi sığorta şəhadətnaməsində göstərildiyi tarixdə və ya tranzit daşınan yükün Azərbaycan Respublikasının ərazisini tərk etdiyi andan (hansı tez baş verərsə) qüvvədən düşür.

11.8. Sığorta yalnız sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrini əhatə edir.

## Maddə 12. **Sığorta müqaviləsi bağlanan zaman sığortalı tərəfindən bildirilməli olan faktlar**

12.1. Sığorta müqaviləsi bağlanarkən sığortalı riskin baş vermə ehtimalının müəyyən edilməsi və mümkün itkilərin həcminin hesablanması üçün əhəmiyyət daşıyan və xəbərdar olduğu bütün faktları və halları bildirməyə borcludur.

12.2. Sığortalının məlumatının yalan, yanlış və yaxud yarımçıq olması hallarında sığortaçı sığorta müqaviləsini imzalamaqdan imtina edir və ya bunu öyrəndikdə və ya bu haqda sığortalı tərəfindən ona məlumat verildikdə:

12.2.1. sığortalı bunu qəsdən etmişdirsə, sığortaçı vəziyyəti öyrəndiyi andan etibarən 1 (bir) ay ərzində müqaviləni bir tərəfli qaydada ləğv edir və bu haqda sığortalının sığorta müqaviləsində göstərilmiş sonuncu ünvanına yazılı surətdə (və ya sifarişli məktub vasitəsilə) məlumat göndərir. Bu halda sığorta haqqı sığortalıya qaytarılmır. Sığortalının öz öhdəliyini bu bənddə göstərilən qaydada pozması ilə sığorta müqaviləsi ləğv edilənədək keçən müddət ərzində baş vermiş sığorta hadisəsi arasında hər hansı əlaqə olarsa, sığortaçı, sığorta ödənişini verməkdən imtina edə bilər;

12.2.2. sığortalı bu hərəkəti bilmədən etmişdirsə, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 ay ərzində müqaviləni ləğv edə bilər və ya həmin vaxt üçün sığorta haqqının fərqini almaqla müqaviləni davam etdirə bilər. Sığortalı tələb edilən sığorta haqqının fərqini 5 (beş) gün ərzində sığortaçıya ödəməzsə və ya ödəməyi yazılı şəkildə öhdəsinə götürməzsə, sığorta müqaviləsi ləğv edilmiş hesab olunur.

12.3. Sığortaçı tərəfindən tətbiq olunan ləğv etmə, bu haqda sığortalıya yazılı surətdə (və ya sifarişli məktub vasitəsilə) məlumat verildiyi (göndərildiyi) tarixdən 5 iş günü sonra, sığortalı tərəfindən tətbiq edilən ləğv etmə bu haqda sığortaçıya yazılı surətdə (və ya sifarişli məktub vasitəsilə) məlumat verildiyi (göndərildiyi) tarixdən sonrakı gün saat 2400-da hüquqi qüvvəyə minir.

12.4. Sığortalının hərəkətində heç bir qəsd müəyyən edilmədiyi hallarda sığorta hadisəsi

12.4.1. sığortaçı vəziyyəti öyrənməmişdən əvvəl;

12.4.2. müqavilənin ləğv edilməsini tələb edə biləcəyi müddət ərzində, və yaxud;

12.4.3. müqavilənin ləğv edilməsi tələbinin hüquqi qüvvə qazanması üçün lazım olan müddət ərzində baş verərsə, sığortaçı, sığorta ödənişini sığortalının məlumatına əsasən hesablanan (sığortalı tərəfindən ödənilən) sığorta haqqı ilə həqiqətdə hesablanmalı (sığortalı tərəfindən ödənilməli) olan sığorta haqqı arasındakı nisbətə uyğun olaraq ödəyir.

Maddə 13. **Sığorta müddəti**

Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta təminatı, sığorta haqqının ödənildiyi andan tez olmayaraq, tranzitin başladığı andan başlayır və sığorta şəhadətnaməsində qeyd olunan tarixdə Azərbaycan vaxtı ilə saat $24^{00}$-dan gec olmayaraq tranzit bitdiyi andan qüvvəsini itirir.

Maddə 14. **Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi**

14.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

14.1.1. sığortalı sığorta haqqını sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

14.1.2. sığortalı yük daşıyıcı kimi fəaliyyət göstərməkdən məhrum edildikdə;

14.1.3. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam həcmdə yerinə yetirdikdə;

14.1.4. məhkəmə tərəfindən sığorta müqaviləsinin etibarsız olduğu haqda qərar qəbul edildikdə;

14.1.5. Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda.

14.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

Maddə 15. **Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə**

15.1. Bu Qaydaların 16-cı maddəsində göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda, müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu haqda xəbərdar etməlidir.

15.2. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsinə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən artıq müddətə bağlanıldıqda 60 gün, 3 aydan az müddətə bağlanıldıqda isə 5 iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

Maddə 16. **Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri**

16.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə ödənilmiş sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır;

16.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, o, sığortalının (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) sığorta haqlarını bütünlüklə qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla, müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) sığortalıya qaytarır;

16.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya

16.3.1. ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır;

16.3.2. ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında

sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 16.1 və 16.2 bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.
16.4. Sığorta müqaviləsi bu Qaydaların 14.2 bəndində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla, müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Qaydaların 16.3 bəndi nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

## BÖLMƏ VI. TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

Maddə 17. **Sığortaçının hüquqları və vəzifələri**
17.1. Sığortaçı aşağıdakıları öhdəsinə götürür:
17.1.1. sığortalını sığorta müqaviləsinin şərtləri və bu sığorta Qaydaları ilə tanış etmək;
17.1.2. sığorta şəhadətnaməsini və sığorta müqaviləsinin şərtlərini sığorta müqaviləsində göstərilmiş müddətdə sığortalıya təqdim etmək;
17.1.3. bu Qaydaların və sığorta müqaviləsinin şərtlərinə riayət etmək;
17.1.4. sığorta hadisəsi baş verdikdə, sığorta müqaviləsi ilə müəyyən edilmiş müddətdə sığorta ödənişini vermək. Sığortaçı bu öhdəliyə əməl etmədikdə, hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0.1 faizi həcmində dəbbə pulu ödəyir;
17.1.5. peşəkar fəaliyyəti nəticəsində əldə etdiyi sığorta sirri hesab edilən məlumatları qorumaq, həmin məlumatları qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa digər şəxslərə yaymamaq;
17.1.6. sığorta qanunvericiliyi və sığorta müqaviləsi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.
17.2. Sığortaçı aşağıdakı hüquqlara malikdir:
17.2.1. faydalanan şəxsdən və sorğu əsasında müvafiq səlahiyyətli orqanlardan sığorta hadisəsinin səbəbini və şəraitini göstərən rəsmi sənədlərin və aktların əslinin və ya surətlərinin təqdim edilməsini tələb etmək;
17.2.2. sığorta ödənişini verərkən faydalanan şəxsdən sığorta şəhadətnaməsinin təqdim edilməsini tələb etmək;
17.2.3. zərərin həcminin azaldılması məqsədilə tövsiyyələr vermək;
17.2.4. faydalanan şəxs ilə birlikdə hadisənin şəraitinin təhqiq edilməsi, işlərin aparılması, yaxud zərərlərin tənzim edilməsi üçün qəza komissarları, vəkilləri və digər şəxsləri təyin etmək, yaxud onları muzdla tutmaq. Lakin, sığortaçının və onun səlahiyyətli nümayəndələrinin bu hərəkətləri faydalanan şəxsə sığorta ödənişini almaq hüququnun tanınması üçün əsas vermir;
17.2.5. sığortalının bu Qaydaların 18.1.3 bəndində nəzərdə tutulmuş öhdəliyini yerinə yetirməməsi ilə əlaqədar sığorta müqaviləsinin ləğv edilməsinin səbəb olduğu zərərlərin ödənilməsini və sığorta müqaviləsinin ləğv edilməsini tələb etmək;
17.2.6. sığorta qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.
Maddə 18. **Sığortalının hüquqları və vəzifələri**
18.1. Sığortalı aşağıdakıları öhdəsinə götürür:
18.1.1. sığorta müqaviləsi bağlanan zaman özünə məlum olan və sığorta riskinin qiymətləndirilməsində mühüm əhəmiyyətə malik bütün hallar barədə sığortaçını məlumatlandırmaq;
18.1.2. sığorta müqaviləsində göstərilmiş müddətdə sığorta haqqını sığortaçıya ödəmək;
18.1.3. bu Qaydaların 18.1.1 bəndində qeyd edilmiş hallardan hər hansı bir dəyişiklik və ya əhəmiyyətli kənara çıxmalar olduqda, bu barədə xəbərdar olduqdan sonra dərhal və ya ən gec 1 (bir) iş günü ərzində sığortaçını məlumatlandırmaq;
18.1.4. sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, ümumi (vahid) sığorta müqaviləsi ilə təminat verilən hər bir daşıma haqqında bütün zəruri məlumatları, xüsusilə də yükün növü, yükü daşıyan nəqliyyat vasitəsinin növü və nömrəsi, yükün hərəkət marşrutu, yükün dəyərini və sığorta məbləğini dərhal sığortaçıya bildirmək;
18.1.5. bu Qaydaların müddəalarına riayət etmək;
18.1.6. sığorta hadisəsi (iddia tələbinin və ya pretenziyanın yaranmasına səbəb ola bilən hal) baş verdikdə:
a) sığorta hadisəsinin səbəb olduğu zərərin qarşısını almaq və həcminin azaldılması məqsədi ilə özündən asılı olan bütün ağlabatan və zəruri tədbirləri görmək, hadisə ilə əlaqədar müvafiq

səlahiyyətli orqanları vaxtında xəbərdar etmək, sığorta hadisəsinin və onun baş verdiyi şəraitin rəsmiləşdirilməsi üçün tədbirlər görmək və sığorta hadisəsinin baş verməsindən xəbərdar olduğu andan etibarən dərhal və ya ən gec 3 (üç) iş günü ərzində sığortaçıya sığorta hadisəsi haqqında məlumat vermək və əgər belə göstərişlər sığortaçı tərəfindən bildiriləcəksə, sığortaçının bütün göstərişlərinə əməl etmək;

b) tranzit yük zərərə məruz qaldığı halda sığortaçının nümayəndəsi baxış keçirənə qədər zədələnmiş yükü sığorta hadisəsindən sonra düşdüyü vəziyyətdə saxlamaq (əgər bu insanlar üçün təhlükəli deyildirsə və yaxud zərərin həcminin azaldılması maraqlarına zidd deyildirsə) və zədələnmiş (məhv olmuş) yükün siyahısını sığortaçıya təqdim etmək;

c) zərərin qiymətləndirilməsində iştirak etmək üçün həmin ərazidə sığortaçının maraqlarını təmsil edən qəza komissarını cəlb etmək;

d) sığorta hadisəsinin baş vermə səbəblərinin, onun səbəb olduğu zərərin həcminin və başqa şəraitin müəyyənləşdirilməsi üçün sığortaçının nümayəndələrinə, qəza komissarına imkan vermək və müvafiq şəraiti yaratmaq;

e) sığortaçıya sığorta hadisəsinin baş vermə səbəblərini və şəraitini özündə əks etdirən rəsmi sənədləri onun tələbi ilə təqdim etmək;

f) təqsirkar şəxsə qarşı zərərin əvəzinin ödənilməsi tələbinin həyata keçirilməsi üçün mövcud qanunvericiliklə nəzərdə tutulmuş tədbirləri görmək;

18.1.7. vurulmuş zərərlərə görə təqsirkar üçüncü şəxs(lər)dən zərərin əvəzini aldığı andan etibarən dərhal və ya ən gec 3 (üç) gün ərzində sığortaçıya bu barədə məlumat vermək;

18.1.8. sığorta qanunvericiliyi və sığorta müqaviləsi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

18.2. Sığortalı aşağıdakı hüquqlara malikdir:

18.2.1. sığorta müqaviləsi bağlanan zaman:

a) kommersiya sirri olmayan sığortaçının maliyyə sabitliyi ilə bağlı məlumatı tələb etmək;

b) sığorta müqaviləsinin şərtləri ilə tanış olmaq;

18.2.2. sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta müqaviləsi (sığorta şəhadətnaməsi) itirildikdə, onun dublikatını almaq;

18.2.3. iddia, məhkəmə və arbitraj işlərinin aparılması üçün məsləhət almaq məqsədilə sığortaçıya (onun nümayəndəsinə) müraciət etmək, yaxud bilavasitə işlərin aparılmasını həvalə etmək;

18.2.4. sığorta müqaviləsinin şərtlərinə və bu Qaydalara uyğun olaraq sığorta ödənişini almaq;

18.2.5. sığorta müqaviləsi üzrə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirməsini sığortaçıdan tələb etmək;

18.2.6. sığorta qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

## BÖLMƏ VII. ÖDƏNİLƏN ZƏRƏRLƏR

### Maddə 19. **Ödənilən zərərlər**

19.1. Sığortaçı, sığorta hadisəsi nəticəsində ortaya çıxan aşağıdakı xərcləri ödəyir:

19.1.1. gömrük qanunvericiliyinə uyğun olaraq tranzit daşımalar zamanı pozuntunun aşkar olunduğu halda sığortalının məruz qaldığı xərclər (yük Azərbaycan Respublikasının ərazisinə gətirildiyi halda gömrük orqanları tərəfindən gömrük rəsmiləşdirməsinə hesablanmalı və sığortalının həmin hesablar üzrə ödəməli olduğu xərclər);

19.1.2. ümumi sığorta ödənişi məbləğinin 5 %-dən artıq olmamaq şərtilə, vurulan zərərin əvəzinin ödənilməsi tələbi ilə bağlı gömrük orqanlarının qaldırdığı iddialara görə sığortalının çəkdiyi məhkəmə və sığorta hadisəsi şəraitinin təhqiq edilməsi xərcləri.

19.2. Sığorta hadisəsi ilə əlaqədar olaraq zərərin azaldılması məqsədi ilə sığortalının çəkdiyi zəruri və ağlabatan xərclər də sığortaçı tərəfindən ödənilir. Sığortaçı tərəfindən ödənilməli olan xərclər, zəruri olduğu və bilavasitə onun göstərişlərinin yerinə yetirilməsi ilə əlaqədar olaraq çəkildikdə, hətta müvafiq tədbirlər uğursuz olduqda belə, sığortaçı bu xərcləri ödəyir.

19.3. Bu Qaydaların 19.2 bəndində göstərilən xərclər, sığorta ödənişi verilərkən ödənilir.

19.4. Hər bir halda sığortaçı sığorta məbləğindən artıq heç bir ödəniş həyata keçirmir.

19.5. Bu sığorta üzrə hər hansı əlavə xərclərə, müvafiq icra hakimiyyəti orqanları tərəfindən hesablanmış cərimələrə və ya digər məsrəflərə görə sığortaçı məsuliyyət daşımır və heç bir ödəniş həyata keçirmir.

19.6. Bu Qaydalara əsasən sığortalanan sığortalının məsuliyyəti digər sığortaçı(lar) tərəfindən də sığortalanmışdırsa, hər bir sığortaçı özünün bağladığı müqaviləyə müvafiq sığorta məbləğinin bütün

bağlanmış müqavilələr üzrə ümumi sığorta məbləğinə olan nisbətinə mütənasib olan miqdarında məsuliyyət daşıyır.

## BÖLMƏ VIII. SIĞORTA ÖDƏNİŞİ

Maddə 20. **Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər**

20.1. Sığorta ödənişinin verilməsi üçün sığortaçı tərəfindən tələb olunan sənədlər aşağıdakılardır:

20.1.1. gömrük orqanlarının qərarına və mübahisəsiz cərimısinə aid akt;

20.1.2. yol-nəqliyyat qaimələri;

20.1.3. hesab-fakturalar;

20.1.4. yük manifestləri;

20.1.5. plomb, yaxud möhür zərərə məruz qaldıqda, habelə yol-nəqliyyat hadisəsi (YNH) nəticəsində yükün zədələnməsi, yaxud məhv olması hallarında: gömrük, yaxud ərazisində YNH baş vermiş səlahiyyətli orqanlarının tərtib etdikləri (polis) protokolun surəti;

20.1.6. qarşısıalınmaz qüvvələrin təsiri, yükün özünün təbii xassəsi, yaxud hüquqa zidd xarakterli (yükün daşınması zamanı oğurluq faktını, yaxud digər hüquqa zidd xarakterli hadisələri təsdiq edən polis orqanlarının arayışı, sürücünün hadisə haqqında yazılı izahatı və s.) hadisələrin təsiri nəticəsində yükün məhv olması şəraiti, kəmliyi, yaxud itirilməsi üzrə digər yazılı sübutlar;

20.1.7. gömrük orqanlarının möhürü və plombası ilə nəqliyyat vasitəsinin beynəlxalq daşımalara buraxılması haqqında şəhadətnamənin surəti;

20.1.8. malların daşınması prosedurasının pozulmasına görə gömrük orqanları tərəfindən daşıyıcıların üzərinə məsuliyyət qoyulmasına və həmin məsuliyyət məbləğinin müəyyən edilməsinə əsas verən iddia məktubu, yaxud digər sənəd;

20.1.9. zərərin aradan qaldırılması və azaldılması, məhkəmə və arbitraj orqanlarında öz mənafeyinin müdafiə edilməsi məqsədilə sığortalının çəkmiş olduğu xərcləri təsdiq edən sənədlər;

20.1.10. malların daşınması prosedurunun aşkar olunmuş pozuntusu ilə əlaqədar olaraq irəli sürülən iddialara baxılmasının nəticələri üzrə sığortalının gömrük orqanları ilə yazışmalarının surəti;

20.1.11. iddia ilə əlaqədar olaraq sığortalı tərəfindən ödənişin verilməsini təsdiq edən sənəd;

20.1.12. əgər sığortaçı sığortalının tələbi ilə sığorta ödənişi məbləğini iddiaya görə sığorta ödənişini faktiki olaraq həyata keçirmiş sığortalının nümayəndəsinə ödəməli olarsa, sığortalı tərəfindən həmin nümayəndəyə sığortalının zərərini tənzimləmək və ödəmək səlahiyyətinin verilməsini təsdiq edən sənədlər.

20.2. Sığortaçı, daşımanın konkret şəraitindən, hadisənin və iddianın mahiyyətindən asılı olaraq, gömrük orqanlarının iddialarına obyektiv baxılması və sığorta ödənişi məsələsinin həll edilməsi üçün zəruri şərt olan əlavə sənədlərin və məlumatların verilməsini tələb etmək hüququna malikdir.

Maddə 21. **Sığorta ödənişinin verilməsi qaydası**

21.1. Sığorta ödənişinin məbləği ödənilir:

21.1.1. ərazisində pozuntunun aşkar olunduğu gömrük qanunvericiliyinə uyğun olaraq, gömrük rüsumlarının, habelə onların gömrük orqanlarına ödənilməsinin gecikdirilməsinə görə faizlərin ödənilməsi şəklində sığortalının faktiki ödəməli olduğu məbləğ;

21.1.2. ərazisində pozuntunun aşkar olunduğu gömrük qanunvericiliyinə uyğun olaraq, gömrük rüsumlarının, habelə onların gömrük orqanlarına ödənilməsinin gecikdirilməsinə görə faizlərin ödənilməsi şəklində sığortalının əvəzindən ödənişi həyata keçirdikdə, BADB-da göstərilən zəmanət birliyinə.

21.2. Sığorta ödənişi bütün zəruri iddia sənədləri əldə edildikdən sonra sığortaçının qərarına əsasən bilavasitə iddia qaldırana 15 iş günü ərzində həyata keçirilir.

21.3. Sığortalı sığorta ödənişi məbləğini digər şəxslərdən alarsa, sığortaçı yalnız sığorta şərtlərinə görə ödənilməli olan məbləğlə üçüncü şəxslərdən alınmış məbləğ arasındakı fərq həcmində sığorta ödənişini verir.

Maddə 22. **Sığorta ödənişinin verilməsindən imtina**

22.1. Aşağıdakı hallarda sığortaçı sığorta ödənişini həyata keçirməkdən imtina etmək hüququna malikdir:

22.1.1. sığorta hadisəsinin baş verməsi haqqında sığortaçı sığorta müqaviləsində göstərilən müddətdə məlumatlandırılmadıqda, sığortaçının sığorta hadisəsinin baş verməsi haqqında vaxtında məlumat aldığı sübut olunmadıqda, yaxud sığortaçının bu barədə məlumatsız olması sığorta ödənişinin həyata keçirilməsi üzrə onun vəzifələrinə təsir etmədikdə;

22.1.2. zərərin həcmini azaltmaq üçün sığortalı tərəfindən ağlabatan və mümkün tədbirlərin görülməməsi səbəbindən zərər və itkilər törədildikdə.

22.2. Sığorta ödənişinin verilməsindən imtina edilməsi haqqında sığortaçının qərarı, onun səbəbləri yazılı şəkildə əsaslandırılmaqla, sığortalıya təqdim edilir.

## BÖLMƏ IX. DİGƏR MÜDDƏALAR

Maddə 23. **Subroqasiya hüququ**

23.1. Sığortacı, sığortalı ilə eyni zamanda və birlikdə, bilavasitə, yaxud dolayısı ilə, zərərvuran şəxsə qarşı iddia qaldırmaq hüququnu həyata keçirir. Zərərvuran üçüncü şəxsin təqsirinin sübut olunması mümkün olmadığı təqdirdə, subroqasiya tələbinin təmin olunması üzrə məsuliyyət daşıyıcının üzərinə düşür;

23.2. Əgər daşıyıcı onun tərəfindən səhvə yol verilmədiyini sübut edərsə və onun köməyi ilə zərərvuran şəxsin müəyyən edilməsi mümkün olarsa, sığortalının daşıyıcıya qarşı tələb irəli sürmək hüququ dayandırılır;

23.3. Əgər daşıyıcı oğurluq, qarət və soyğunçuluq vaxtı onun tərəfindən bu cür vəziyyətlərdə bütün zəruri təhlükəsizlik və ehtiyat tədbirlərinin görüldüyünü sübut edərsə, sığortaçı yük daşıyıcıya qarşı iddia qaldırmaq hüququnun yerinə yetirilməsindən imtina edir.

Maddə 24. **Valyuta haqqında qeyd-şərt**

24.1. Sığorta məbləğlərinin, azadolmaların və tələblərin xarici valyuta ilə ifadə olunduğu hallarda, bütün ödənişlər Azərbaycan Respublikası Milli Bankının ödənişin həyata keçirildiyi tarixə və ya ödənişə əsas verən sənədin tərtib edilməsi tarixinə olan rəsmi məzənnəsi əsasında Azərbaycan manatı ilə, ya da Azərbaycan Respublikasının valyuta qanunvericiliyinə müvafiq olduğu hallarda hər hansı xarici valyuta ilə həyata keçirilə bilər;

24.2. Əgər sığorta ödənişinin verilməsi üçün əsas olan sənədlər Azərbaycan manatı və ya müqavilənin valyutasından fərqli valyutada ifadə olunmuşdursa, sığorta müqaviləsinin ifadə olunduğu valyutaya çevirmə Azərbaycan Respublikası Milli Bankının həmin sənədin buraxıldığı tarixə uyğun rəsmi məzənnəsi əsasında həyata keçirilir.

Maddə 25. **İş sirlərinin gizli saxlanılması**

Sığortaçı, sığortalıya aid öyrəndiyi və ya iş prosesində öyrənəcəyi iş sirlərini gizli saxlamadığı halda dəyən zərərə görə məsuliyyət daşıyır.

Maddə 26. **Mübahisələrin həlli qaydası**

Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə pretenziya qaydasında, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr vasitəsilə həll edilir.

Maddə 27. **İddia müddəti**

Sığorta şəhadətnaməsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə həll edilir.